Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına Respublika
Uşaq Kitabxanası



# Azərbaycan rəssamlığında Mikayıl Abdullayev izləri

**Xalq rəssamı Mikayıl Abdullayevin 100 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı - 2021**

**Tərtibçi:** **Nərgiz Məcidova**
**Sevil Əhmədova**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar Mədəniyyət işçisi*

**Redaktor:** **Ruhiyyə Məmmədli**

**“Azərbaycan rəssamlığında Mikayıl Abdullayev izləri” –** Xalq rəssamı Mikayıl Abdullayevin 100 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F.Köçərli ad. Respublika Uşaq Kitabxanası; tərt.ed. N.Məcidova ixt.red. və burax. məsul Ş. Qəmbərova; red. R.Məmmədli - Bakı: F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2021. – 41 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2021**

# Mikayıl Abdullayevin 100 illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2021-ci ilin dekabr ayında Azərbaycan təsviri sənətinin görkəmli nümayəndəsi, SSRİ və Azərbaycan Respublikasının Xalq rəssamı, SSRİ Rəssamlıq Akademiyasının akademiki, Dövlət Mükafatı laureatı, professor Mikayıl Hüseyn oğlu Abdullayevin anadan olmasının 100 ili tamam olur.

Mikayıl Abdullayev parlaq ənənələrə malik Azərbaycan rəssamlıq məktəbinin böyük simalarındandır. Onun təsviri sənətin ən müxtəlif sahələrini əhatə edən koloritli yaradıcılığı xalqımızın mədəni sərvətlər xəzinəsində özünəməxsus layiqli yer tutur. Sənətkar çoxsaylı tematik lövhə, mənzərə və natürmortlarında doğma təbiətin gözəlliklərini, insanların quruculuq əzmini və mənəvi zənginliyi incə rəng çalarları ilə tərənnüm etmiş, dahi Nizaminin "Xəmsə"sinin motivləri əsasında monumental rəngkarlığın bənzərsiz nümunələrini yaratmışdır. Azərbaycan ədəbiyyatına dərin məhəbbətlə ərsəyə gətirdiyi silsilə portretlər və klassik ədəbi əsərlərə çəkdiyi parlaq illüstrasiyalar rəssamın Şərq və Qərb incəsənətinin mütərəqqi ənənələrinin qovuşuğunda formalaşdırdığı yeni dəst-xəttin dolğun ifadəsidir. Dünyanın nüfuzlu sərgi salonlarında, muzey və qalereyalarında uğurla nümayiş etdirilən əsərləri Mikayıl Abdullayevi fitri istedad sahibi kimi tanıtmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, müasir Azərbaycan təsviri sənətinin inkişafında və geniş şöhrət qazanmasında mühüm xidmətlər göstərmiş görkəmli fırça ustası Mikayıl Abdullayevin anadan olmasının 100-cü ildönümünün qeyd olunmasını təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Rəssamlar İttifaqının təkliflərini nəzərə almaqla, Xalq rəssamı Mikayıl Abdullayevin 100 illik yubileyi ilə əlaqədar tədbirlər planı hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**lham Əliyev**

**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 10 sentyabr 2021-ci il**

## Tərtibçidən

Bu il Mikayıl Abdullayevin anadan olmasının 100-cü ildönümü tamam olur. Sənətkar əlinə fırça aldığı gündən könlünü rənglər aləminə bağlamışdır. Gözlərinin seçdiyi, əllərinin isitdiyi mövzuları kətan üzərində elə ustalıqla işləmişdir ki, istedadlı rəssamın zaman anlayışı olmamışdır. Əsərlərinin mövzusu bütün dövrlərdə aktual mövzulara çevrilmişdir. Əslində, yaradıcılığının qızıl dövrü sovet hakimiyyətinin hökm sürdüyü illərə təsadüf etsə də elə əsərlər yaratmışdır ki, fırçasından süzülən sənət inciləri əbədiyaşarlıq qazanmışdır. Təbii ki, bütün rəssamlar fırça və rənglərlə işləyirlər. Mütəxəssislər söyləyirlər ki, fırça da, rənglər də Mikayılın əlində sanki sehrlənirdi. Onun sehrli fırçası böyük əsərlərə çevrilirdi. Bu vəsaitdə çox mürəkkəb, fitri istedad tələb edən bir sənətkar, poetik rəsmləri ilə ətrafına həmişə xoş əhval-ruhiyə saçan rəssam, əsərləri ilə dünyanın hər yerində tanınan tematik tablolar ustası Mikayıl Abdullayevin həyat və yaradıcılığı ilə tanış olacaq, yubilyar haqqında uşaq kitabxanaları, MKS-lər üçün keçirilməsi nəzərdə tutulmuş tədbir formaları haqqında tövsiyələr alacaqsınınız. Ölkəmizdə daxilən azad ruhlu, milli fikirli, uzaqgörən bir sənətkarın yaratdığı inciləri oxuculara tanıtmaq üçün kitabxanalarda və məktəblərdə keçiriləcək müxtəlif tədbir formalarını sizlərə təqdim edirik. Mikayıl Abdullayev çəkdiyi tablolarda Azərbaycanın əsrarəngiz təbiətini, milli-mənəvi dəyərlərini sənətkarlıqla qoruyub saxlamışdır. Vəsait iki hissədən ibarət olaub, I hissə *"Rənglərin poeziyasını yaradan sənətkar - Mikayıl Abdullayev"* adlanır və rəssamın həyat və yaradıcılığından bəhs edir. *"Mikayıl Abdullayev sənətinin qüdrəti "* adlanan II

hissədə isə rəssamın yaradıcılığı ilə bağlı keçirilə biləcək tədbirlərdən söhbət açılır.

## I Bölmə:
## Rənglərin poeziyasını yaradan sənətkar

### Mikayıl Abdullayev

**“Azərbaycan, doğma vətənim. Mən sənin doğma balan, aşiqin kimi səni, sənin gözəlliyini kətan üzərində vəsf etməkdən yorulmuram, doymuram.”**

Mikayıl Hüseyn oğlu Abdullayev 19 dekabr 1921-ci ildə Bakı şəhərində anadan olmuşdur. 21 avqust 2002-ci ildə Bakıda dünyasını dəyişmişdir. Hələ uşaqlıq illərindən nadir bədii üslubu ilə yaradıcılığı təşəkkül etməyə başlayan gələcək rəssam, əslən Təbrizli olan varlı tacir ailəsində doğulmuşdur. Onun böyük qardaş və bacısı gözəl təhsil aldığından, onlar bir neçə xarici dildə danışa bilirmiş. Buda onların həyatda layiqli yer tutmalarına kömək olmuşdur. Lakin sovet hakimiyyəti qurulan kimi ailəni hər şeydən mərhum edib onların əmlakları müsadirə edilmişdir. Represiya illərində rəssamın atasını anadan olduğu İrana qovub, universitetdə dərs deyən böyük qardaşını isə Sibirə sürgün etmişlər. Uşaqlıq illərini yada salarkən rəssam daha çox Bakının mərkəzi küçələrinin birində kirayə etdikləri evdə tez-tez Səməd Vurğun, Mikayıl Müşfiq, Cəfər Cabbarlı kimi məşhur şairlərin qonaq olduqlarını, yazdıqları öz yeni şeirlərini söylədiklərini xatırlayır, onun isə qıraqda oturub eşitdiklərinə şəkillər çəkdiyini söyləyir. Mikiayıl Abdullayevin əsərləri ilə tanış olarkən burada onun doğma diyarın mədəniyyəti, adət-ənələri ilə qırılmaz bağlılığı görünür. Bu səpkidən “Mingəçevir suitası” silsiləsindən çəkdiyi “Rəfiqələr”, “Kür

sahillərində” , “Axşam hövzədə”, “Doğulmuş dəniz”, “Səadət qurucuları ” kimi tablolarını qeyd etmək olar.
Azərbaycan təsviri sənətinin görkəmli nümayəndəsi, Xalq rəssamı, Dövlət mükafatı laureatı, professor Mikayıl Abdullayev Azərbaycan təsviri sənəti tarixində ənənəvi mövzulara üstünlük verən sənət əsərləri yaradan sənətkarlardan idi. Rəssamın dilindən söylənən yuxarıdakı fikirlər də təsdiqləyir ki, sənətkarın ilham mənbəyi və yaradıcılığının mayası öz doğma vətəni Azərbaycan və onun gözəllikləri olmuşdur. Zəngin yaradıcılığa malik rəssam yaratdığı əsərlərində təbiəti müxtəlif şəkillərdə əks etdirmişdir. O, təbiət aləmindən, kosmik ünsürlərindən həm təsvirlərdə, həm də rəmzi mənada faydalanırdı. Tablolarında təbiət mənzərələrinə daha çox yer verirdi. Emalatxanada işləməkdən çox təbiətin qoynunda gününü keçirməyi sevirdi. Masallıda uzun müddət ezamiyyətdə olan rəssam səfərdən dönərkən qiymətli tablolar yaratmışdı. Mingəçevir seriyasından olan əsərləri də onun gözəl işlərindən biri idi. O, gördüyü təbiəti olduğu kimi ağ kətana köçürür, ondan aldığı həzzi fırçanın dili ilə tamaşaçısına çatdırırdı. Mikayıl Abdullayevin təsviri sənətin boyakarlıq və qrafika janrında yaratdığı əsərləri Azərbaycan incəsənətinin çox qiymətli nümünələri kimi dünyanın bir çox ölkələrinin muzeylərində dəyərli eksponat kimi bu gündə saxlanılmaqdadır.

O, kağız və fırça ilə təkcə təbiəti yox, insan deyilən varlığın zəngin dünyasını da kəşf edərək, insanı zəiflik və zərifliyi ilə tanıtmaq istəyirdi. Mikayıl Abdullayev çəkdiyi əsərlərinin çoxunda kənd adamlarının həyatını və məişətini böyük ustalıqla tamaşaçıya çatdırırdı. *“Masallı” silsiləsi” ndən olan “Körpəsinin ardınca”, “Manqabaşçısı Rəxşəndə”* bu mövzuda onun ən qiymətli tablolarından sayılır. Bu istedadlı sənətkarın qəlbində o qədər böyük nikbin bir ruh

yaşayırdı ki, yaratdığı əsərlərində də bu nikbinlik hiss olunurdu. Misal olaraq *"Tarlada", "Lənkəranlı kolxozçu qadın", "Abşeronda", "Astarada çay yığımı", "Çəltikçi qızlar" və s.* əsərlərində nikbinlik notları aydın hiss edilir. Rəssamın yaratdığı bu əsərlər əhəmiyyətini itirmir, xalqın ürəyində əbədi yer tuturdu. Bu baxımdan bu gün Mikayıl Abdullayev yaradıcılığının nümunələri milli mədəniyyətimizin əsl təbliğatçısı kimi özünü göstərir. Daha çox milli ruhlu mövzulara üstünlük verən sənətkarın yaradıcılığında, həm də təsviri sənətimizin çoxəsrlik tarixini şərəfləndirən onlarla əsərlərinin də adını çəkə bilərik. Mikayıl Abdullayev sənətinin qüdrəti bir də ondadır ki, o, Azərbaycanımızın rəssamlıq ənənələrini böyük ustalıqla inkişaf etdirmiş, ona yeniliklər qatmış professor, Xalq rəssamıdır. Bütün əsərlərinə o öz qəlbinin hərarətini əlavə etdiyinə görə də bu əsərlər əbədi olaraq xalqımızın tarixində öz layiqli yerini alıb və uzun illər yaşayacaqdır. Mikayıl Abdullayev öz fırçası ilə bütün dünyanı gəzmiş, əsərləri iə sərgiləri bəzəmiş rəssamlardan biridir. Buna görə ona fırçasının və boyasının dili ilə dünyanın dərdlərini və dəhşətlərini əsərlərində yaşadan sənətkar deyə bilərik. Ustadın yaratdığı rəsmlərə tamaşa etdikcə demək olar ki, bu möcüzəvi əsərlər bizləri dünənimizə, bu günümüzə və sabahkı ömür yolumuza iti nəzər yetirməyə səsləyir. Onu dövründə dünya rəssamı Pikassoda hesab edirdilər. Təhsilini başa vurub Moskvadan qayıtmış rəssam Orada Sergey Gerasimov kimi dünya səviyyəli rəssamın tələbəsi olduğundan Bakıda bildiklərini tələbələrinə öyrətməkdən böyük şərəf duyurdu. Rəssam 1960-cı ildə isə SSRİ Rəssamlar İttifaqının üzvü, daha sonra katibi seçilmişdir.

Yarım əsrdən çox bir dövrü əhatə edən zəngin yaradıcılığında Mikayıl Abdullayev ilk ixtisas təhsilini 1935-1939 Bakı

rəssamlıq texnikumunda və ali təhsilini 1939-1949-cu illərdə isə V.İ.Surikov adına Moskva Dövlət Rəssamlıq İnstitutunda almışdır. Bu illər ərzində o, təsviri sənətin rəngkarlıq və qrafika, monumental və teatr sənəti sahəsində zəngin fəaliyyət göstərmişdir. Təsviri sənətdəki yaradıcılıq uğurlarına görə Mikayıl Abdullayev *"Azərbaycan SSR xalq rəssamı"* fəxri adına laiq görülmüşdür. Mikayıl Abdullayev Respublikamızda ilk dəfə *" SSRİ xalq rəssamı "* adına layiq görülən və SSRİ Rəssamlıq Akademiyasının həqiqi üzvü seçilən sənətkardır. Sənətkar həm də C.Nehru adına beynəlxalq və Azərbaycan SSR Dövlət mükafatınada layiq görülmüşdür. Müstəqillik illərində isə rəssam " İstiqlal " ordeni ilə təltif edilmişdir.



Yaradıcılığının ilkin dövrü hesab edilən 40-cı illərdə yaratdığı *"Axşam"* və *"Mingəçevir işıqları"* tabloları yüksək professional səviyyədə yaradılmış sənət nümunələri olmuşdur. Onlar bu gün də qiymətli tablolardan olub təsviri sənətimizin tarixində əhəmiyyətli əsərlər kimi dəyərləndirilir. " Axşam " tablosu, rəssamın özünün də etiraf etdiyi kimi, ən əlamətdar və məzmunlu lövhələrdən biri sayılır. Bu əsəri çəkərkən, rəssamın cəmi 26 yaşı olmuşdur. Burada əsasən

Qarabağ milli geyimlərində təsvir edilən Azərbaycan qadınlarının surəti mənalı və gözəl əks edilmişdir.
Məlumdur ki, Azərbaycan Milli İncəsənət Muzeyində saxlanan bütün əsərlər dəyərli və əvəzsizdir. Bunların içərisində dünya şöhrətli rəssam Mikayıl Abdullayevinn 1948-ci ildə kətan üzərində yağlı boya ilə çəkdiyi " Mingəçevir işıqları " adlı tabloda vardır.



Tabloda Kür çayının sahillərində inşa edilən Mingəçevir SES-ı əks olunmuşdur. Çayın hər iki sahilində elektrik fənərləri Mingəçevirin ilk işıqlarıdır. Çayın sol tərəfində Boz-dağ ucalır. İlk dəfə əsər 1948-ci ildə Moskvada Ümumittifaqın Bədii Sərgisində sərgilənmişdir. Daha sonra 1958-ci ildə Buxarestdə , 1959-cu ildə Sofiyada, 1959-cu ildə Belqradda, 1959-cu ildə Tiranada, 1959-cu ildə Praqada, 1960-cı ildə Parisdə, 1965- ci ildə Livan, İraq, Suriya, BƏƏ, müxtəlif sərgilərdə və 1972-ci ildə Monrealda keçirilən Beynəlxalq Sərgidə nümayiş edilmişdir. 1957-ci ildə üç aylıq Hindistana yaradıcılıq ezamiyyətinə getmiş fırça ustası Vətənə qayıdarkən öz təəssüratlarını, özü ilə gətirdiyi portretlərdə ustalıqla göstərmiş, ayrı-ayrı həyat səhnələrini çox qiymətli rəsm əsərlərinə çevirmişdir.





M.Abdullayev bu silsilə üzərində on beş il məhsuldar işləmişdir. O, *“ Racastan qadınları ”, “ Benqal qızları”* və s. başqa əsərlər yaratmışdır. Təsadüfi deyildir ki, Mikayıl Abdullayev bu əsərlərin müəllifi kimi Hindistanın *Cavahirlər Nehru* mükafatına layiq görülmüşdür.

## II bölmə “Mikayıl Abdullayev sənətinin qüdrəti”

### Keçiriləcək tədbirlər

Mikayıl Abdullayev parlaq ənənələrə malik Azərbaycan rəssamlıq məktəbinin böyük simalarındandır. Onun təsviri sənətin ən müxtəlif sahələrini əhatə edən koloritli yaradıcılığı xalqımızın mədəni sərvətlər xəzinəsində özünəməxsus layiqli yer tutur. Gəlin Azərbaycan rəssamlığında yer alan sənətkarın çoxsaylı tematik lövhə, mənzərə və natürmortlarından doğma təbiətin gözəlliklərini, insanların quruculuq əzmini və mənəvi zənginliyi incə rəng çalarları ilə tərənnüm etdiyi dahi Nizaminin “Xəmsə” sinin motivləri əsasında yaratdığı monumental rəngkarlığın bənzərsiz nümunələrindən danışaq.

2021-ci ilin dekabr ayında Azərbaycan təsviri sənətinin görkəmli nümayəndəsi, Xalq rəssamı, Azərbaycan rəssamlıq məktəbinin böyük simalarından olan professor Mikayıl Hüseyn oğlu Abdullayevin anadan olmasının 100 ilik yubileyinin keçirilməsi haqqında cənab Prezident İlham Əliyev tərəfindən sərəncam imzalanmışdır. Sərəncamda Mikayıl Abdullayevin parlaq ənənələrə malik Azərbaycan rəssamlıq məktəbinin böyük simalarından olduğu, təsviri sənətin ən müxtəlif sahələrini əhatə edən koloritli yaradıcılığı xalqımızın mədəni sərvətlər xəzinəsində özünəməxsus layiqli yer tutduğu qeyd edilir. Sənətkarın yaradıcılığında çoxsaylı tematik lövhə, mənzərə və natürmortlarında doğma təbiətin gözəlliklərini, insanların quruculuq əzmini və mənəvi zənginliyini incə rəng çalarları ilə tərənnüm etdiyini, dahi Nizaminin " Xəmsə "nin motivləri əsasında monumental rəngkarlığın bənzərsiz nümunələrini yaratdığını Azərbaycan ədəbiyyatına dərin məhəbbətlə ərsəyə gətirdiyi silsilə portretlər və klassik ədəbi əsərlərə çəkdiyi parlaq illüstrasiyalar qeyd edilir. Sərəncama əsasən, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Rəssamlar İttifaqının təkliflərini nəzərə almaqla, Xalq rəssamı Mikayıl Abdullayevin 100 illik yubileyi ilə əlaqədar tədbirlər planı hazırlayıb həyata keçirməsi, Nazirlər Kabinetinin bu Sərəncamdan irəli gələn məsələləri həll etməsi qeyd olunur.

Rəssamın həyat və yaradıcılığı, tabloları ilə oxucuları tanış etmək üçün kitabxanada onun haqqında virtual sərgi təşkil edə bilərik. Bu sərgilərin məqsədi oxucuları incəsənətə, mütaliəyə həvəsləndirməkdir. Kitabxanalarda müasir dövrün tələbi olan virtual kitab sərgiləri hazırlamaq oxucu cəlbi üçün ən keçərli vasitələrdən biri hesab olunur. Keçirilən

tədbirlərdə müasir Azərbaycan incəsənətimizin görkəmli nümayəndəsi Mikayıl Abdullayevin yaradıcılığından bəhs edən məlumatı aşağıdakı linkdən istifadə edərək oxuculara təqdim edə bilərik.

**https://www.youtube.com/watch?v=-DPJRCkLvtU**

Mikayıl Abdullayevin həyat və yaradıcılığından bəhs edən ədəbiyyatların təbliği istiqamətində təşkil oluna biləcək virtual sərgidə rəssam haqqında müxtəlif illərdə çap olunmuş kitablarla yanaşı onun haqqında çap olunmuş kitabiçi məqalələr, dövrü mətbuatda dərc olunmuş məqalələr, foto-şəkillər nümayiş oluna bilər. Virtual kitab sərgisini hazırlayan zaman həm kitabxananın fondunda olan sənədlərdən, həm də elektron resurslardan istifadə etmək tövsiyə olunur. Kitabxanada yubilyarın həyat və yaradıcılığından bəhs edən slaydların hazırlanması da məqsədəuyğundur. Sərgilərin hazırlanmasında yubilyar haqqında deyilən sitatlardan da istifadə etmək olar. Xalq rəssamı Mikayıl Abdullayevin yaradıcılığını əhatə edəcək sərgiləri hazırlayarkən aşağdakı sərgi başlıqlarından istifadə edə bilərik.

**Sərgi başlıqları:**

1.“ Mikayıl Abdullayev – 100 ”,
2.“ Azərbaycan rəssamlıq məktəbinin böyük siması ”
3.“Azərbaycan rəssamlığında Mikayıl Abdullayev zirvəsi”
4. “Ustad rəssamın solmaz boyaları”
5 “ Rənglərin də dili var”

Virtual sərgilər kitabxana fondunu təmsil edən, kitabxana xidmətlərinin inkişafına və təkmilləşdirilməsinə kömək edən vasitələrdəndir. Sərginin əsas məqsədi ictimai internetdə müxtəlif növ sənədlərin yığcam, mənalı və geniş təqdimatıdır.

**Kitablar**















**Görkəmli şəxsiyyətlərin Mikayıl Abdullayev haqqında söylədikləri**

Mikayıl Abdullayevin böyük emosional təsir qüvvəsinə, milli koloritə, tərbiyəvi məzmuna malik əsərləri gənc nəslin formalaşmasında böyük rol oynamışdır.

**Ümummillilider Heydər Əliyev**

Mikayıl Abdullayev "Bəstəkar ürəkli rəssam"dır.

**Bəstəkar Fikrət Əmirov**

Nəsimi filmində Nəsimi rolunu oynayacaq aktyoru seçməyimdə Mikayıl Abdullayevin eyniadlı tablosu imdadıma çatdı.

**Kinorejissor Həsən Seyidbəyli**

Əmək mövzusunu təsvir edərkən rəssamın diqqət mərkəzində bu və ya digər istehsalat prosesi deyil, onun mənəvi aləmi, düşüncələri durur. Sənətdə adi təsvirçiliyi inkar edən Abdullayev öz əsərlərində əmək mövzusunu bədii-obrazlı səpkidə ümumiləşdirməyə çalışır.

**Tədqiqatçı, sənətşünas Nurəddin Həbibov**

Əsərlərini bütövlükdə milli ruha kökləmiş SSRİ və Azərbaycanın xalq rəssamı, SSRİ Dövlət mükafatı və Beynəlxalq Cəvahirlər Nehru mükafatı laureatı Mikayıl Abdullayev bütün yaradıcı həyatını Azərbaycan təbiətinin, onun qəhrəman insanlarının, tarixinin şanlı səhifələrinin vəsfinə həsr etmiş bir rəssamdır. Kitabxanada yubilyarın haqqında yazılmış kitabların icmalı, rəssamın

yaradıcılığından bəhs edən video çarxların nümayişi, kitabxananın elektron səhifələrində məlumatların verilməsi, bukletlərin hazırlanması məqsədəuyğundur. Bəli, təsviri sənətimizin inkişafında mühüm xidmətləri olan bu böyük sənətkarın boyakarlıq və qrafika janrında yaratdığı əsərlər bu gün incəsənətimizin çox qiymətli səhifələrini təşkil edir.

## Kitab icmalı



Mikayıl Abdullayevin yaradıcılığından bəhs edən kitab icmalının məqsədi oxucunu Xalq rəssamının yaradıcılığı ilə yaxından tanış etməkdir. Kitabxanada "Xalq əmanəti" layihəsi əsasında rəssam haqqında çap edilmiş " Mikayıl Abdullayev, Rəngkarlıq və qrafika " adlı kitabla oxucuları tanış etmək çox maraqlı olar. Bu kitab Azərbaycan təsviri sənətində, rəngkarlığında özünəməxsus dəst-xətti olan öz yaradıcılıq yolu ilə fərqlənən sənətkara həsr edilib. Mikayıl Abdullayev dedikdə ilk növbədə xatirimizdə vətənpərvərlik ruhlu tablolar canlanır. Kitabda rəssamın həyat və yaradıcılığı əks olunmuş, rəssamın müxtəlif mövzularda işlədiyi əsərlər haqqında oxuculara məlumat verilmişdir.

Mikayıl Abdullayev = Живопись и графика : Rəngkarlıq və qrafika/ - Bakı : Xalq Bank, 2013. - 280 s. : foto, rəngli il., il. - (Xalq əmanəti). - Azərbaycan və rus dillərində. - (cildli).

Mikayıl Abdullayev (1921-2002) : rəngkarlıq qrafika. - Bakı : Şərq-Qərb, 2013. - 104 s. : rəngli foto, foto. - (Sərvət). - Azərbaycan və ingilis dillərində. Mikayıl Abdullayev (1921-2002) : [plakat-foto] : Boyakar,qrafik və teatr rəssamı. - Bakı : [s. n.], 2017. - 1 plakat foto.

Oxucuların rəssam haqqında daha geniş məlumatlar əldə etməsi üçün Mikayıl Abdullayev yaradıcılığı ilə yaxından tanış olan şəxslə oxucular üçün virtual görüş keçirə bilərik. Layihənin təşkilində kitabxana ilk əvvəl keçiriləcək tədbir haqqında oxucuları clb.az. saytında və ya facebook səhifəsində məlumatlandırır. Görüşdə iştirak edən şəxs oxucularla Mikayıl Abdullayev yaradıcılığı ətrafında söhbət edir, yubilyarı onlara tanıdır.

**İlqar Q. İlkin xatirələr : Mikayıl Abdullayev Xalq rəssamı // Biz də uşaq olmuşuq. – Bakı : Nərgiz, 2003. – S.174-198.**

Quliyev Əsəd-XX əsr Azərbaycan incəsənəti haqqında oçerklər

https://drive.google.com/file/d/18Y7qGUlGCVjgGh52rHX86UlzomJIB3yQ/view?usp=sharing

İlqar Qəşəm-Biz də uşaq olmuşuq

https://drive.google.com/file/d/1DCqmgp8K3CAVlEEl1FFf98QeVF71zilX/view?usp=sharing

Abdullayev Mikayıl 1921-2002

https://drive.google.com/file/d/17-43McuvCXgX_ekk0l_N5Zt2vug134gg/view?usp=sharing

Multikulturalizm və Tolerantlıq Diyarı Azərbaycan

https://drive.google.com/file/d/1RFQ9dsUlIVm5CprhluGfr7oosaqNw5xA/view?usp=sharing

Abdullayev Mikayıl

https://drive.google.com/file/d/1wqOa1_cZhF47mE-AkRqO92-HM2vFga4s/view?usp=sharing

## Mikayıl Abdullayev yaradıcılığında portret janrı





Müxtəlif janrlara müraciət edən Mikayıl Abdullayevin yaratdığı portretlər qalereyasında məşhur sənət adamlarının çox qiymətli portretləri vardır. Bunlardan *“M. Qorki 1928-ci ildə Bakıda”, “Üzeyir Hacıbəyov”, “Səməd Vurğun”, “M.F.Axundov”, “M.P.Vaqif”, “İmadəddin Nəsimi”, “Pianoçu F. Bədəlbəyli ”* və s. əsərlər rəssamın böyük portret ustası olduğunu bir daha təsdiq edir. Yaratdığı portretləri nəzərə alaraq Sənətşünaslardan biri onun haqqında belə yazırdı: - *M. Abdullayevin sənəti bəşəriyyətin qurub-yaratmağa mənəvi əzmini ifadə etdiyi üçün, məhz bu baxımdan hər hansı əsl sənət əsəri kimi elmi kəşflərlə bərabər tutula bilər ”.*

 

Kitabxanada *“Mikayl Abdullayev yaradıcılığında portret janrı” , “Mikayıl Abdullayevin əsərləri ilə onları tanıyaq”* adlı sərgilərin təşkili məqsədəuyğundur.

M.Abdullayevin sənət uğurları hələ Moskvada təhsil aldığı illərdən başlamışdır. Belə ki, rəssamın 1943-cü ildə tələbə ikən yaratdığı “Üzeyir Hacıbəylinin portreti”, 1947-ci ildə işləmiş olduğu “Axşam” tablosu sənət dünyamıza yeni istedadın gəlməsindən xəbər verirdi. İyirmi iki yaşlı gənc rəssamın böyük bəstəkar Ü.Hacıbəylinin yaddaqalan portretini yaratması artıq rəssamın uğuru demək idi. Kompozisiyada kresloda əyləşmiş vəziyyətdə çöhrəsini bir qədər yana çevirən, nəzərləri uzaqlara yönəlmiş halda dərin fikirlərə dalmış, müasir musiqi sənətimizin banisi Ü. Hacıbəylinin obrazı ustalıqla təsvir olunmuşdur. Əsərdə rəssamın işıq-kölgə effektindən bacarıqla istifadə etməsi sonda bitkin kompozisiyanın yaradılmasına səbəb olmuşdur. Tabloda rəssam dahi bəstəkarın yaradıcı daxili psixoloji aləmini tamaşaçıya çatdıra bilmişdir. Qeyd etdiyimiz kimi Mikayıl Abdullayevin yaradıcılığında portret janrında işlənmiş əsərlər xüsusi yer tuturdu. Onlardan *1944 - cü ildə dahi Üzeyir Hacıbəyov, 1954 - cü ildə rəqqasə Əminə Dilbazi, 1960 - cı ildə şair Rəsul Rza, 1961 - ci ildə*

*drammaturq M. F. Axundov, 1967-ci ildə – Molla Pənah Vaqif və b.* əsərlərin adlarını çəkə bilərik. Rəssamın özü Azərbaycanın iftixarı Üzeyir bəy Hacıbəyovun naturadan portretini çəkməsindən belə danışırdı: “ 1943-cü ildə dünya şöhrətli bəstəkarın yağlı boya ilə obrazını yaratmışdım. Əsər Üzeyir bəyin çox xoşuna gəlmişdi. Onu muzeyə verməyib, evində saxlamışdır. Moskvada Ali Rəssamlıq Məktəbində təhsil alanda dahi bəstəkar , bir çox tələbələr kimi, mənə də çox qayğı, yardım göstərmişdi ”. Bu portretdə rəssam yüksək peşəkarlıqla dahi Üzeyirin daxili aləmini təcəssüm etdirmiş, obrazını yaratmışdır. Əsərin yaranma tarixçəsi başqa yöndəndə çox maraqlıdır. Portret o vaxt yeni yaradılan Cəfər Cabbarlı adına Azərbaycan Teatr Muzeyinin ekspozisiyasını bəzəmək üçün lazım idi. Onu rəssama görkəmli dramaturqun həyat yoldaşı Sona xanım sifariş etmişdi. Sifarişin məsuliyyətini dərindən hiss edən gənc rəssam onu hazır fotolar əsasında yaratmaq əvəzinə, bilavasitə naturadan işləmək qərarına gəlmişdir. Mikayıl Abdullayev istəyini Üzeyir bəyə bildirəndə ilk əvvəl o, bu işə razılıq verməmişdir. Sonralar məlum olmuşdur ki, buna onu vadar edən səbəb varmış. Belə ki, əvvəllər Moskvada rəssamlardan biridə onun portretini çəkmək istəmişdir. Əksinə bu bəstəkarın xeyli vaxt itkisinə səbəb olmuşdur. Və bu hadisə bəstəkarda rəssamlara qarşı xeyli inamsızlıq yaratmışdır. Bu baxımdan o, 22 yaşlı tələbənin yaxşı portret çəkəcəyinə də ümid bəsləməmişdir. O vaxtlar Bakıda İncəsənət İşləri İdarəsinin rəisi işləyən Xalq artisti Adil İsgəndərovun təkidindən və xahişindən sonra Üzeyir bəy bu işə razılıq vermişdir.

Kitabxanada Mikayıl Abdullayevin yaradıcılığını oxuculara daha yaxından tanıtmaq məqsədilə rəssamın xatirələri əsasında səhnəciklər də təşkil oluna bilər.

**Aparıcı:** Səhnədə görünən rəssam nəhayət, Üzeyir bəyin bu işə razılıq verməsi xəbərini eşidib böyük həyəcan keçirir. Konservatoriyanın o vaxtkı direktor müavini və Üzeyir bəyin şəxsi katibi Ramazan Xəlilovla əlaqə saxlayıb, təyin edilmiş vaxtdan da bir qədər əvvəl konservatoriyanın keçmiş ünvanına - birmərtəbəli kiçik binasına gəlir. Üzeyir bəyin kabinetində pəncərə qabağında iş yerimi rahatlayaraq molbertin ayaqlarını açıb avadanlıqlarını qurur və rənglərini sahmanlayır. Lövhə üçün hazırladığı çərçivəli kətanı üçayaqlı molbertə bənd edir. Üzeyir bəy kabinetə daxil olanda o cəld ayağa qalxır və ehtiramla salamlaşırlar. Günahkar adamlar kimi susur. Ramazan iş ləvazimatlarıyla Üzeyir bəyi tanış edir.

**Üzeyir Hacıbəyli :** *sağ əlinin baş və şəhadət barmaqlarıyla bığlarını sığallayaraq dodaqaltı :* " Bilirəm, portret yaratmaq çətin məsələdir, mürəkkəb işdir". *Sonra kresloya əyləşir, əllərini kreslonun qolları üstünə qoyub soruşur:*

- Necə oturmalıyam?

**Mikayıl A:** " Elə bu cür, oturduğunuz kimi, sərbəst "**.** Rəssam kömürü əlinə alıb cəld işə başlayır.

Aparıcı: Kabineti sakitlik bürüyür, yalnız kətan parçası üzərində kömürün səsi-xışıltısı eşidilir. Otaqdakı sakitliyi Üzeyir bəyin özü pozur və başını aşağı salıb kağızlarla məşğul olan Ramazana deyir:
**Üzeyir Hacıbəyli : -** Ramazan! Bir fikir ver. Mən özümü görürəm . *Sonra zəncirli cib saatını çıxarıb əlavə edir:*
Düz 15 dəqiqədir oturmuşam. Əhsən, qoçaq!

Əvvəlcə təəccüblənən Mikayılin sonra birdən yadına düşür ki, kətan çox nazik olduğuna görə bu yanda çəkdiyi rəsm o yandan görsənir:

**Mikayıl Abdullayev:** Üzeyir bəy, yorulmusunuzsa, dincələ bilərsiniz .

**Üzeyir Hacıbəyli:** Əsla yorulmamışam, amma məmnuniyyətlə durub, bir o tərəfdən də baxardım...

**Mikayıl Abdullayev:** Buyurun, buyurun - *deyə pəncərənin qabağından çəkilir.*

**Üzeyir Hacıbəyli:** *Qalxıb kömür rəsminə çox səmimi təbəssümlə baxaraq əlavə edir:* " Bərəkallah! Bax, bu başqa məsələ. Belə portretini çəkdirənin öz vaxtına heyfi gəlməz. Otururam, işimizə davam edək .

Aparıcı:Üzeyir bəyin bu sözlərindən sonra rəssam qeyd edir ki, özümü tam sərbəst hiss etməyə başladım və keçirtdiyim müəyyən tərəddüd bir anda sovuşdu. Portreti üç-dörd seansa tamamladım.

**Aparıcı:** Muzeyin tələsdirdiyinə baxmayaraq, portreti onlara təhvil vermək bir qədər təxirə düşür. Səbəbi isə bu olur Səhər 9.30-da gəlib kabineti açdıran rəssam, portreti və molberti aparmaq istəyir. Komendant qapını açа-açа ona deyir: Portreti dünən axşam biz apardıq Üzeyir bəyin evinə. Məleykə xanım portretə baxmaq istəyib, amma xəstə olduğuna görə bura gələ bilmir . Ona görədə apardıq.

Mən Teatr Muzeyinə dəyib, əhvalatı Sona xanıma danışdım. Amma beş gün portretdən xəbər çıxmadı. Sona xanım isə yaman həyəcan keçirirdi:

**Sona xanım:** Ay Mikayıl, ay başına dönüm, muzeyi açmalıyıq. Sən Allah, get o portreti gətir. Doğrusu, Üzeyir bəyin evinə özüm zəng vurmağa utanırdım, odur ki, gəlib Ramazanı tapdım.

**Ramazan Xəlilov:** Açığını deyim, bilirsən nə var? Portret onların o qədər xoşuna gəlib ki, vermirlər. Hətta məni müvəkkil ediblər sənə deyim və öyrənim, o portretin qiyməti nə qədərdirsə, Üzeyir bəy dəyər-qiymətini sənə vermək istəyir .

*Mikayl bərk pərt olur və bunu Ramazan da hiss edir.*

**Mikayıl Abdullayev:** Ramazan, nə danışırsan? Dünyasında heç mən belə şeyə razı olmaram. Üzeyir bəy Moskvada oxuyan bizim yaradıcı gəncliyə daim atalıq etmişdir. Elə mən də onların içərisində. Bunu məndən də yaxşı bilirsən. İndi mən durub ondan portret haqqı alım? Əksinə, bu mənim üçün şərəfdir!

**Aparıcı:** Gənc rəssamla Ramazanın bu söhbətindən sonra portretin Üzeyir bəyə bağışlanılması qərara alınır. Amma rəssam bəstəkardan muzeydə yer alacaq ikinci portretin çəkilməsi üçün ona vaxt ayırmasını xahiş edir. Üzeyir bəy bu dəfə həvəslə buna razılıq verir. Həmin vaxt baş verənləri Mikayıl Abdullayev xatirələrində belə xatırlayır:

“ Tezliklə ikinci və həcm etibarı ilə böyük bir portret yaranır. Bu dəfə kabinetdəki iş masasının arxasında, tünd-qırmızı xalçanın fonunda o, barmaqlarını daraqlayıb əyləşmiş olur və yavaşdan deyir: “ İndi də belə oturaq ”. Poza mənim çox xoşuma gəldi və dedim ki, Üzeyir bəy, bu poza mənə əvvəlkindən də xoş gəlir, amma bacardığınız qədər sərbəst oturun. Elə bilin, heç şəklinizi çəkmirlər.

**Aparıcı:** Bir neçə seansdan sonra rəssam ikinci portreti də tamamlanır. Rəssamın özünə bu portret daha xoş gəlirdi. Belə ki, həmin əsərdə obraz daha yığcam görünür və tünd lövhədə yalnız üz və əllər işıqlanırdı. Bu ikinci portretin maraqlı bir

macərası vardır. Həmin hadisəni Mikayıl Abdullayev belə nəql edirmiş:

**Mikayıl Abdullayev:** - Həmin bu portret üzərində işimizi qurtarmaq vaxtı yaxınlaşırdı. Üzeyir bəyə bir balaca soyuq dəydi. O, iki-üç gün işə çıxmadı. Həmin günlər kabinet bağlı qalmışdı. Arada gəlib iş ləvazimatımı aparırdım. Bir dəfə elə oldu ki, gedəndə portreti iş masasının arxasındakı o qollu kreslonun qolları üstünə qoyaraq həmin divar xalçasına söykəyib getdim. Düzü, bu çox maraqlı yer idi, o mənada ki, çərçivənin yanları əsla görünmürdü, şəklin fonu çəkilmiş xalçanın rəngi ilə bir-birinə qarışırdı. Uzaqdan baxanda yalnız üz və əllər işıqlanaraq çox təbii və inandırıcı görsənirdi. Bu "effektə " portretin böyük həcmi, naturaya yaxın olması kömək edirdi. Vaxtdan istifadə edərək rənglərin qurumasını gözləyirdim. Ertəsi gün Üzeyir bəy evdən konservatoriyanın dəftərxanasına zəng vurub deyir ki, Açarlar yadından çıxıb kabinetdə masanın üstündə qalıbdır . Xidmətçi qadın gəlib kabinetin qapısını açıb içəri girən kimi, dərhal geri dönüb dəftərxanaya qayıdır və Üzeyir bəyin özünün gəldiyi xəbərini onlara çatdırır. Dəftərxanadakılar təəccüblənirlər ki, elə şey olmaz; əvvəla, Üzeyir bəy xəstədir, ikincisi, telefon zəngindən heç beş dəqiqə keçməyib; bu tezliklə də heç " monolit " binasından bura gəlib çatmaq olar? Kimsə gedib yaxınlaşır və qapının açar yerindən baxıb görür ki, " doğrudan da, elə Üzeyir bəy öz yerindədir ". Bu dəfə tədris hissə müdiri: "A balam, siz nə danışırsınız " deyə özü gedir və kabineti açıb içəri girəndə öz etirafına görə, əvvəl bir anlığa çaşır, sonra masa arxasındakının Üzeyir bəyin özü yox, onun portreti olduğunu görüb gülməyə başlayır... Bu əhvalatı xeyli vaxt deyib-gülərdilər. Üzeyir bəy isə deyərdi ki, " bax, bu ikinci portret özü, müəllifsiz imtahandan çıxıbdır".



Mikayıl Abdullayev eyni zamanda qrafika əsərlərinin - illüstrasiya və kitab tərtibatı nümunələrinin müəllifi kimi də tanınırdı. Onun “Kitabi Dədə Qorqud ” dastanına, Füzulinin “Leyli və Məcnun” poemasına, Bəxtiyar Vahabzadənin “Şəbi-hicran” mənzum əsərinə, Süleyman Rəhimovun və bir çox başqa qələm sahiblərinin yaradıcılıqlarına çəkdiyi təsvir nümunələri maraqla qarşılanmışdı.

Kitabxanada bu əsərlərin oxucularla icmalını təşkil edib, kitabın illüstrasiyası və kitab tərtibatı rəssamı haqqında məlumat verə bilərik. Həmçinin rəssamın kətan üzərində yaratdığı obrazlar - “Yüz yaşlı usta”, “Şair Süleyman Rüstəm” , “ Ornament ustası Lətif Kərimov ”, “ Yazıçı Həsən Seyidbəyli ” əsərlərinin obrazları haqqında Rəssamlıq Akademiyasının tələbələri ilə müzakirələr də təşkil etmək olar.

Mikayıl Abdullayevi həmkarlarından fərqləndirən bir cəhəti də onun zəngin biliyi, bənzərsiz müşahidələrinin olmasıdır. Deyərdi: “ Hər gün ən azı 4 saat mütaliə edirəm, 2

saat yazıram, 8 saat molbert önündə dayanıram. Bakının küçələrini gəzir, dənizkənarı parka çıxaram.”

Mikayıl Abdullayevin 1970-80-ci illərdə “Kommunist”, “Ədəbiyyat və incəsənət”, “İzvestiya”, “ Literaturnaya qazeta ” qəzetlərində, “Azərbaycan”, “Qobustan” jurnallarında sənət haqqında dəyərli məqalələri dərc olunmuşdu.



Mərhum kinorejissor Həsən Seyidbəyli deyirdi ki, “Nəsimi” bədii filmində Nəsimi rolunu oynayacaq aktyoru seçməyimdə Mikayıl Abdullayevin eyniadlı məşhur tablosu imdadıma çatmışdı. Fırça ustasının fantaziya və təfəkkürünün vəhdətindən yaranmış həmin portret milli təsviri sənətimizin qızıl fonduna daxil olmuş boyakarlıq nümunələrindən biridir. Kitabxanada oxucularla Nəsimi filminin nümayişini keçiriməklə oxucularla müzakirə keçirib, onlara film haqqında suallar təqdim edə bilərik.

1. Nəsimi filmini hansı kinorejissor çəkmişdir?
   Həsən Seyidbəyli
2. Film neçənci ildə çəkilmişdir?
   1973-cü ildə
3. Filmdə aktyorun seçilməsində hansı rəssamın əsərindən istifadə edilmişdir?
   Mikayıl Abdullayevin
4. Mikayıl Abdullayevin işlədiyi Nəsimi portreti neçənci ildə çəkilmişdir?
   1960-cı ildə
5. Rəssamın çəkdiyi əsər hansı janrdadır?

Portret M.Abdullayevin yaradıcılığında Bakı metrosunun “ Nizami ” stansiyasının interyerinin tərtibatı da xüsusi yer tutur. Oradakı təsvirlər mozaika sənətinin ən gözəl nümunələri kimi zövq oxşayır. Metronun bu stansiyasını həqiqətən yeraltı muzey də adlandırmaq olar. Rəssamın teatrımızın inkişafındakı xidmətlərindən danışarkən məlum olur ki, O, “Leyli və Məcnun”, “ Koroğlu ” operalarına, Niyazinin “ Çitra ” baletinə bədii tərtibat vermişdir. İncəsənətdə gördüyü işlərinə görə görkəmli bəstəkar Fikrət Əmirov onu “ Bəstəkar ürəkli rəssam” adlandırmışdır.

Qədirbilən tamaşaçılarla rənglərin diliylə danışan mahir fırça ustası tez-tez onların görüşünə gedər, ölkəmizi el-el, oba-oba gəzərdi. Ürəkaçan nə görərdisə, min bir həvəslə kağız-kətan üzərində əbədiləşdirərdi. Sənətkarı oxucularımıza tanıtdırmaq, yaradıcılığını onlara çatdırmaq üçün yubilyarın necə interyer mozaika ustası olduğunu əsərləri ilə sübut edə bilərik. Onlara Nizami metrosunun ornamentləri əsasında hazırlanmış slayd təqdim etməklə muzeyin gözəlliklərinə səyahət etmiş olarıq.

Məndə bir can var, səndə bir can,
Mənim qələmim var,
sənin fırçan.
Mənimki sözdür.
Səninki rəng,
Mən yazım qardaşım, sən çək,
Mənim əlim olmasada yazaram,
gözüm olmasa da...
Ancaq hər ikimiz
Yarada bilmərik ürəksiz.

Mənimki sözdür, səninki rəng,
Var olsun ürək!

Bu misraları 55 il əvvəl xalq şairi Rəsul Rza görkəmli fırça ustası Mikayıl Abdullayevin yaradıcılığından ilham alıb, şəxsiyyətinə sevgi bildirərək yazıb. Yaradıcılığı üçün daxili həyəcan, obrazların psixologiyasının poetik ümumiləşdirilməsi daha xarakterik olduğundan onun yaratdığı hər bir tablonu seyr edərkən deyə bilərik ki, bir əsər oxumuş oluruq. Onun əsərləri milli koloritin zənginliyi ilə cəlbedicidir. Bu xüsusiyyətlər onun *"Mingəçevir işıqları", "Xaçmaz qızları", "Astarada çay yığımı", "Azərbaycan çöllərində" triptixində, "Çəltik əkən qızlar"* əsərində daha aydın görünür. Milli ənənələrin, kənd yerində yaşayan insanların əməyi, məişəti, tipik mənəvi çalarların üzvi şəkildə müasirliklə vəhdətdə verilməsi Mikayıl Abdullayev yaradıcılığına xas xüsusiyyətdir.



Rəssamın "Qırx birin iyunu " triptixinin mərkəzi hissəsi xüsusilə diqqəti cəlb edir. Kitabxanada bu əsər əsasında oxucularla müharibə mövzusunda kənd əməkçiləri adlı söhbət də təşkil etmək olar. Əsər 1941-45-ci illərdə kənd

əməkçilərinin payına düşən, ağır, narahat, keşməkeşli həyatını əks etdirən rəsm əsəri, canlı povestdir deyə bilərik. "Çəltikçi qızlar " monumental lövhəsi XX əsrin qadınının zəngin mənəvi cizgilərini parlaq boyalarla əks etdirir. Bu, rəssamın ən sevimli mövzusudur. İşlədiyi bir sıra tablolarda o müasir qadın obrazını müxtəlif formalarda əks etdirmişdir. *"Qarabağlı qızlar", "Lənkəranlı kolxozçu qadın", "Abşeronlu qadın", "Ananın gəncliyi"* kimi əsərləri bu qəbildəndir. Xalq şairi Səməd Vurğun, yüz yaşlı naxışçı usta Babayev, şair, mütəfəkkir Nəsimi və başqa portretlər qalereyası, Abşeron peyzajları, natürmortlar, Əfqanıstan və başqa ölkələrə həsr etdiyi əsərlər Mikayıl Abdullayev yaradıcılıq diapazonunun genişliyinə şəhadət verir. Bu əsərlərin çoxunda ana obrazı əsl cizgilərlə işlənmişdir. Rəssam ana obrazının gözəlliyini, fədakarlığını, zəhmətkeşliyini, canıyananlığını böyük ustalıqla təsvir etmişdir.

Dünyanın bir çox şəhərlərində təşkil olunan beynəlxalq sərgilərdə və festivallarda nümayiş olunmuş rəssamın əsərləri dəfələrlə müxtəlif mükafatlara layiq görülmüşdür. 1966-1967-ci illərdə Berlin və Leypsiqdə, eləcə də sonrakı illərdə başqa şəhərlərdə fərdi sərgiləri keçirilmişdir. Özünəməxsus yazı üslubu olan sənət ustasının öz yaradıcılığı və dünya sənətkarlığı barədə məqalələri müxtəlif qəzet və jurnallarda dərc edilmişdir. M.Abdullayev hərtərəfli biliyə malik sənətkar olub, demək olar ki, təsviri sənətin bütün sahələrində dəzgah rəngkarlığı, qrafika, teatr dekorasiyası, monumental rəngkarlıq və s. çalışıb. Sadalanan sahələrin hər birində rəssam, özünəməxsus yaradıcılıq dəst-xəttinə uyğun, bitib-tükənməyən zərif sənətkar duyğularının ifadəsi olan əsl sənət inciləri yaradıb. Rəssam Sovet dövründə yaşayıb-yaratsada yaradıcı şəxs olaraq, sənətkar kimi heç zaman mübaliğələrə,

aldadıcı süni zahiri effektlərə, ənənəvi mövzulara üstünlük verməyib. Hər nə yaradıbsa, özünün daxili aləminin meyarlarına uyğun şəkildə bədiiləşdirib, təqdim edib. Rəssamın əsərlərinə tamaşa edərkən orada impressionist sənətin xüsusiyyətlərinə, plener işığına, təəssürat xarakterli bədii şərhlərə rast gəlmiş olarıq. Bu xüsusiyyətlər koloritdə, işlənmə üslubunda, personajların ifadəsində özünü qabarıq şəkildə büruzə verir.

*"Axşam"* tablosunda təsvir olunmuş personajların qeyri-adi və ani şəkildə baş verən hərəkətləri isə tamaşaçıda bir qədər duyğulandırıcı lirik hisslər yaradır. Əsərin kompozisiya quruluşu və kolorit həlli ustalıqla işlənmişdir. Orada Azərbaycan kəndinin çağdaş durumu ailə-məişət adətləri, etnoqrafik xüsusiyyətləri yüksək səviyyədə təsvir olunmuşdur.

Mingəçevir silsiləsinə daxil olan "Mingəçevir işıqları" (1948), " Beşilliyin yolları ilə " (1949), " Səadət quranlar " (1951),"Rəfiqələr" (1952-1953), "Kürün sahillərində" (1954) və digər əsərlərində o zamankı Azərbaycan həyatı möhtəşəm ifadə edilir. Silsiləyə daxil olan *"Səadət quranlar"* adlı əsərində rəssam qurub-yaratmaq əzmli insanların bədii əmək dastanını yaradıb. Rəssam yaradıcılığında əmək mövzusunun çalarlarını genişləndirərək ona başqa aspektdən yanaşmış və bu əsərlərində əməyin romantikasını ifadə etmişdir desək, yanılmarıq. Bu işlərin hər biri rəssamın gərgin yaradıcılıq axtarışlarının nəticəsidir.

Rəssam "Sevinc" tablosunda ana məhəbbətinin dolğun yaşantılarını incə rəng çalarlarıyla verib. Bunu M.Abdullayevin müəllimi, məşhur rus rəssamı, akademik İqor Qrabarın əsər haqqında dediyi fikir də təsdiq edir:
" Lövhə rənglərlə və işıqla hədsiz dərəcədə dolğundur…"

Elə əsərin 1958-ci ildə Brüsseldə Ümumdünya sərgisində gümüş medala layiq görülməsi də onun sənətkarlıqla işlənilməsinin nəticəsi idi.

Qeyd etmək lazımdır ki, M.Abdullayev 1956-cı ildə İtaliyada qısamüddətli yaradıcılıq səfərində olur. Bu səfər nəticəsində rəssam Avropa sənətinin ən dəyərli əsərləri ilə əyani şəkildə tanış olur və zəngin materiallar toplayır.

1957-ci ildə rəssamın Hindistana üç aylıq səfəri onun yaradıcılığında yeni üfüqlər açmış oldu. M. Abdullayevin səfər nəticəsində yaratdığı əsərlərini Azərbaycan incəsənətinin ayrılmaz tərkib hissəsi hesab etmək olar. “Kəlkətəli tələbə qız”, “Benqal qızları”, “Balaca Çandra”, “Körpəsinə süd verən qadın”, “Caypur qadınları”, “İşdən qayıdanlar”, “Uzaq Caypurda”, “Racastan qadınları” və başqa əsərləri rəssamın “Hindistan silsiləsi ”nin ən uğurlu əsərlərindəndir.

Rəssam bu dövrdə həm də “ Həmyerlilərim ” silsiləsinə daxil olan bir neçə əsərlərdə yaradır. Buna misal olaraq “Azərbaycan çöllərində” triptixini, “Çəltikbecərənlər” diptixini, “ Qoca çoban ”, “ Masallı qızları ”, “ Lənkəranlı qız ”, “ Abşeronda ”, “ Tarlada ” və başqa əsərləri göstərmək olar. “Çəltikbecərənlər” diptixinə tamaşa edərkən kənd mövzusunun romantikasını, mərd Azərbaycan qadınının əməksevərliyini inandırıcı boyalarla ifadəsini hiss edirsən. Bu əsərə görə rəssam 1974-cü ildə Azərbaycan SSR Dövlət Mükafatına layiq görülmüşdür. Bu əsərin də kitabxanaçı tərəfindən icmalı oxucular üçün çox maraqlı olar.

M.Abdullayevin “ Portretlər qalereya ”sına nəzər yetirdikdə sənətkarın yaratdığı obrazın daxili aləminə psixoloq kimi nüfuz etməyi bacaran sənətkar olduğunu bir daha yəqin edirsən. Bu sıraya “İmadəddin Nəsimi”, “M.P.Vaqif ”,

“Aşıq Ələsgər”, “M.F.Axundov”, “Akademik Yusif Məmmədəliyev”, “ Yüz yaşlı şəbəkə ustası Ə.Babayev ”, “ Şair Rəsul Rza ”, “ Pianoçu F.Bədəlbəyli ”, “ Əbu Əli ibn Sina ” və digər portretləri misal göstərmək olar.

Mikayıl Abdullayev “Kitabi-Dədə Qorqud” dastanına, M.Füzulinin “ Leyli və Məcnun ” poemasına, M.İbrahimovun “Gələcək gün” və S.Rəhimovun “Şamo” romanlarına, B.Vahabzadənin “Şəbu Hicran” poemasına və digər əsərlərə illüstrasiyalar çəkib və bədii tərtibat vermişdir. “ Kitabi-Dədə Qorqud ” dastanına və M.Füzulinin “ Leyli və Məcnun ” poemasına çəkdiyi illüstrasiyalar öz orijinal ifadə həllinə və işlənmə üslubuna görə kamil incəsənət nümunələridir. Rəssam Şərq və Qərb incəsənətinin mütərəqqi ənənələrini qovuşduraraq sonda özünəməxsus “ Yeni miniatür üslubu ”nun yaradılmasına nail olub.

M.Abdullayev eyni zamanda bir neçə teatr tamaşasına bədii tərtibat verib. Ü.Hacıbəylinin “ Leyli və Məcnun ”, “ Koroğlu ” operalarının və Niyazinin “ Çitra ” baletinin bədii tərtibatı belə işlərdəndir.

M.Abdullayevin monumental rəngkarlıq sahəsində yaratdığı əsərləri də misilsizdir. Onun dahi Nizami Gəncəvinin “Xəmsə” sinin süjetləri əsasında yaratdığı əsərlər Azərbaycan incəsənətində parlaq töhfələrdən hesab edilir. Onun yaratdığı məktəbin yetirmələri olan onlarla sənətkar bu gün milli rəssamlıq sənətimizin inkişafına xidmət etməkdədir.

M.Abdullayev yaradıcılığı dövlətimiz tərəfindən daim yüksək qiymətləndirilib. Ulu öndər Heydər Əliyevin 18 dekabr 1997-ci il tarixli sərəncamı ilə M.Abdullayev müstəqillik illərində “İstiqlal ” ordeni ilə təltif edilmişdir. Rəssamın sənət irsi indi dövlətimizin diqqətindədir. Ümummilli liderimiz, incəsənətimizin və mədəniyyətimizin

böyük qayğıkeşi Heydər Əliyev rəssamın yaradıcılığına daima hörmətlə yanaşmış, onu Prezident təqaüdünə, "İstiqlal" ordeninə layiq görmüş, ordeni şəxsən özü rəssama təqdim etmişdir. Heydər Əliyevin rəssama ünvanladığı məktubda isə belə deyilib: "Siz Azərbaycan incəsənətinin inkişafında böyük xidmətləri olan mahir fırça ustasısınız. Müxtəlif janr və mövzularda yaratdığınız boyakarlıq və qrafika əsərləri sənət tariximizə əbədi daxil olmuşdur. Böyük emosional təsir qüvvəsinə, milli koloritə, tərbiyəvi məzmuna malik əsərləriniz gənc nəslin formalaşmasında böyük rol oynamışdır. Sizin yorulmaz, məhsuldar fəaliyyətiniz daim Azərbaycan xalqına xidmət etmişdir. ”
Filmlər:
Mətbuat fədaisi (film, 2007) (tammetrajlı sənədli film) (AzTV)
Azərbaycan təsviri sənəti tarixində elə şəxslər olub ki, onlar hansı dövrdə, hansı şəraitdə yaşamasından asılı olmayaraq, sənət ideallarını daha uzaq zamanlara hesablayaraq əsərlər yaradıblar. Xalq rəssamı Mikayıl Abdullayevin (1921-2002) yaradıcılığı bu qəbildəndir. Sənətkarın ilham mənbəyi, yaradıcılığının mayası doğma vətəni Azərbaycandır, onun gözəllikləridir. Rəssamın dilindən söylənən "Azərbaycan, doğma vətənim. Mən sənin doğma balan, aşiqin kimi səni, sənin gözəlliyini kətan üzərində vəsf etməkdən yorulmuram, doymuram" fikirləri də bunu təsdiqləyir.

Mikayıl Hüseyn oğlu Abdullayev 19 dekabr 1921-ci ildə Bakı şəhərində dünyaya göz açıb. O, 1939-cu ildə Ə.Əzimzadə adına rəssamlıq məktəbini, 1949-cu ildə isə V.İ.Surikov adına Moskva Dövlət Rəssamlıq İnstitutunu bitirib. İstedadlı rəssam 1955-ci ildə Azərbaycan SSR Əməkdar İncəsənət Xadimi fəxri adını alıb. 1958-ci ildə SSRİ Rəssamlıq Akademiyasının müxbir üzvü seçilib.

M.Abdullayev 1963-cü ildə SSRİ Xalq rəssamı fəxri adına, 1969-cu ildə beynəlxalq C.Nehru mükafatına, 1974-cü ildə isə Azərbaycan SSR Dövlət Mükafatına layiq görülüb. Qeyd etmək lazımdır ki, Mikayıl Abdullayev SSRİ Xalq rəssamı fəxri adına layiq görülmüş ilk Azərbaycan rəssamı olub.

M.Abdullayev müxtəlif illərdə bir çox xarici ölkələrdə – Hindistan, Əfqanıstan, Macarıstan, Polşa, İtaliya və digər ölkələrdə yaradıcılıq ezamiyyətlərində olaraq təəssüratlarını maraqlı əsərlərdə ifadə edib. Rəssamın əsərləri dünyanın bir çox şəhərlərində təşkil olunan beynəlxalq sərgilərdə və festivallarda nümayiş olunub, dəfələrlə müxtəlif mükafatlara layiq görülüb. 1966-1967-ci illərdə Berlin və Leypsiqdə, eləcə də sonrakı illərdə başqa şəhərlərdə fərdi sərgiləri keçirilib. Onun əsərləri dünyanın müxtəlif muzey, qalereya və şəxsi kolleksiyalarında saxlanılır. Özünəməxsus yazı üslubu olan sənət ustasının öz yaradıcılığı və dünya sənətkarlığı barədə məqalələri müxtəlif qəzet və jurnallarda dərc edilib. M.Abdullayev hərtərəfli biliyə malik sənətkar olub. Demək olar ki, təsviri sənətin bütün sahələrində çalışıb: dəzgah rəngkarlığı, qrafika, teatr dekorasiyası, monumental rəngkarlıq və s. Sadalanan sahələrin hər birində rəssam, özünəməxsus yaradıcılıq dəst-xəttinə uyğun, bitib-tükənməyən zərif sənətkar duyğularının ifadəsi olan əsl sənət inciləri yaradıb. M.Abdullayev Sovet dövründə yaşayıb-yaradıb. Lakin rəssam yaradıcı şəxs olaraq, sənətkar kimi heç zaman mübaliğələrə, aldadıcı süni zahiri effektlərə, ənənəvi mövzulara üstünlük verməyib. Rəssam hər nə yaradıbsa, özünün daxili aləminin meyarlarına uyğun şəkildə bədiiləşdirib, təqdim edib. Əgər biz rəssamın əsərlərinə tamaşa etmiş olsaq orada impressionist sənətin xüsusiyyətlərinə, təəssürat xarakterli bədii şərhlərə rast

gəlmiş olarıq. Bu xüsusiyyətlər koloritdə, işlənmə üslubunda, personajların ifadəsində özünü qabarıq şəkildə büruzə verir. M.Abdullayevin sənət uğurları hələ Moskvada təhsil aldığı illərdən başlayıb. Belə ki, rəssamın 1943-cü ildə tələbə ikən yaratdığı "Üzeyir Hacıbəylinin portreti", 1947-ci ildə işləmiş olduğu "Axşam" tablosu sənət dünyamıza yeni istedadın gəlməsindən xəbər verirdi. İyirmi iki yaşlı gənc rəssamın böyük bəstəkar Ü.Hacıbəylinin naturadan, yaddaqalan portretini yaratması artıq rəssamın uğuru demək idi. Kompozisiyada kresloda əyləşmiş vəziyyətdə çöhrəsini bir qədər yana çevirən, nəzərləri uzaqlara yönəltmiş halda dərin fikirlərə dalmış, müasir musiqi sənətimizin banisi Ü.Hacıbəylinin obrazı təsvir olunub. Rəssam işıq-kölgə effektindən bacarıqla istifadə edərək obrazın əlləri ilə çöhrəsi arasında ümumi uyarlıq yaradıb. Bu metod sonda bitkin kompozisiyanın yaradılmasına səbəb olub. Rəssam dahi bəstəkarın yaradıcı daxili psixoloji aləmini tamaşaçıya çatdıra bilib. "Axşam" tablosunda təsvir olunmuş personajların qeyri-adi və ani şəkildə baş verən hərəkətləri tamaşaçıda bir qədər duyğulandırıcı lirik hisslər yaradır. Əsərin kompozisiya quruluşu və kolorit həlli ustalıqla həll olunub. Orada Azərbaycan kəndinin çağdaş durumu ailə-məişət adətləri, etnoqrafik xüsusiyyətləri yüksək ustalıqla təsvir olunub. Rəssamın "Mingəçevir silsiləsi"nə daxil olan "Mingəçevir işıqları" (1948), " Beşilliyin yolları ilə " (1949), " Səadət quranlar " (1951), " Rəfiqələr " (1952-53), " Kürün sahillərində " (1954) və digər əsərləri o zamankı Azərbaycan həyatının möhtəşəm ifadəsidir. Silsiləyə daxil olan "Səadət quranlar" adlı əsərində rəssam qurub-yaratmaq əzmli insanların bədii əmək dastanını yaradıb. Rəssam əmək mövzusunun çalarlarını genişləndirərək ona başqa aspektdən yanaşmış və əməyin romantikasını ifadə etmişdir desək,

yanılmarıq. Bu işlərin hər biri rəssamın gərgin yaradıcılıq axtarışlarının nəticəsidir. Rəssam “Sevinc” tablosunda ana məhəbbətinin dolğun yaşantılarını incə rəng çalarlarıyla verib. Bunu M.Abdullayevin müəllimi, məşhur rus rəssamı, akademik İqor Qrabarın əsər haqqında dediyi fikir də təsdiq edir: “Lövhə rənglərlə və işıqla hədsiz dərəcədə dolğundur…” Elə əsərin 1958-ci ildə Brüsseldə Ümumdünya sərgisində gümüş medala layiq görülməsi də onun sənətkarlıqla işlənilməsinin nəticəsi idi.

M.Abdullayev 1956-cı ildə İtaliyada qısamüddətli yaradıcılıq səfərində olur. Bu səfər nəticəsində rəssam Avropa sənətinin ən dəyərli əsərləri ilə əyani şəkildə tanış olur və zəngin materiallar toplayır.

1957-ci ildə rəssamın Hindistana üç aylıq səfəri onun yaradıcılığında yeni üfüqlər açmış oldu. M.Abdullayevin səfər nəticəsində yaratdığı əsərləri Azərbaycan incəsənətinin ayrılmaz tərkib hissəsi hesab etmək olar. “Kəlkətəli tələbə qız”, “Benqal qızları”, “Balaca Çandra”, “Körpəsinə süd verən qadın”, “Caypur qadınları”, “İşdən qayıdanlar”, “Uzaq Caypurda”, “Racastan qadınları ” və başqa əsərləri rəssamın “ Hindistan silsiləsi ” nin ən uğurlu əsərlərindəndir. Rəssam bu dövrdə həm də “Həmyerlilərim” silsiləsinə daxil olan bir neçə əsər yaradır. Buna misal olaraq “Azərbaycan çöllərində” triptixini, “Çəltikbecərənlər” diptixini, “Qoca çoban”, “Masallı qızları”, “Lənkəranlı qız”, “Abşeronda”, “Tarlada” və başqa əsərləri göstərmək olar. “Çəltikbecərənlər” diptixinə tamaşa edərkən kənd mövzusunun romantikasını, mərd Azərbaycan qadınının əməksevərliyini inandırıcı boyalarla ifadəsini hiss edirsən. Bu əsərə görə rəssam 1974-cü ildə Azərbaycan SSR Dövlət Mükafatına layiq görülüb.

M.Abdullayevin “Portretlər qalereya”sına nəzər yetirdikdə sənətkarın yaratdığı obrazın daxili aləminə psixoloq kimi

nüfuz etməyi bacaran sənətkar olduğunu bir daha yəqin edirsən. Bu sıradan "İmadəddin Nəsimi", "M.P.Vaqif", "Aşıq Ələsgər", "M.F.Axundov", "Akademik Yusif Məmmədəliyev", "Yüz yaşlı şəbəkə ustası Ə.Babayev", "Şair Rəsul Rza", "Pianoçu F.Bədəlbəyli", "Əbu Əli ibn Sina" və digər portretləri misal göstərmək olar.

M.Abdullayev qrafika yaradıcılığında da məhsuldar olub. Rəssam "Arazın o tayında" seriyası, "Kitabi-Dədə Qorqud" dastanına, M.Füzulinin "Leyli və Məcnun" poemasına, M.İbrahimovun "Gələcək gün" və S.Rəhimovun "Şamo" romanlarına, B.Vahabzadənin "Şəbu Hicran" poemasına və digər əsərlərə illüstrasiyalar çəkib və bədii tərtibat verib. "Kitabi-Dədə Qorqud" dastanına və M.Füzulinin "Leyli və Məcnun" poemasına çəkdiyi illüstrasiyalar öz orijinal ifadə həllinə və işlənmə üslubuna görə kamil incəsənət nümunələridir. Rəssam Şərq və Qərb incəsənətinin mütərəqqi ənənələrini qovuşduraraq sonda özünəməxsus "Yeni miniatür üslubu"nun yaradılmasına nail olub. M.Abdullayev eyni zamanda bir neçə teatr tamaşasına bədii tərtibat verib. Ü.Hacıbəylinin "Leyli və Məcnun", "Koroğlu" operalarının və Niyazinin "Çitra" baletinin bədii tərtibatı belə işlərdəndir. M.Abdullayevin monumental rəngkarlıq sahəsində yaratdığı əsərlər də misilsizdir. Onun dahi Nizami Gəncəvinin "Xəmsə"sinin süjetləri əsasında yaratdığı əsərlər Azərbaycan incəsənətinə parlaq töhfələrdir. M.Abdullayev yaradıcılığı dövlət tərəfindən daim yüksək qiymətləndirilib. Ulu öndər Heydər Əliyevin M.Abdullayevi müstəqillik illərində "İstiqlal" ordeni ilə təltif etməsi buna bariz nümunədir. Rəssamın sənət irsi indi də prezident İlham Əliyevin rəhbəri olduğu dövlətimizin diqqətindədir.

## Mikayıl Abdullayev yaradıcılığında 20 Yanvar faciəsi

Mikayıl Abdullayevin 20 Yanvar faciəsinin qurbanlarına həsr etdiyi " Nakamların dəfni " əsəri rənglərin dili ilə 20 Yanvar şəhidlərimizin qəhrəmanlığını əks etdirir. Rəssamın özü 20 Yanvar faciəsinin şahidi olduğundan sənətkar bu cinayəti XX əsrin böyük cinayətlərindən biri adlandırmış və fırçası ilə əks etdirməyi qərara almışdır. Xalq rəssamı Mikayıl Abdullayevin rənglərin harmoniyasından yoğrulan " Nakamların dəfni " əsərinə tamaşa etdikcə, həqiqətən, öz xalqının qəhrəmanlığından qürur duya bilirik. Bu əsərdə 20 Yanvar faciəsini yaşayan bir xalqın müqəddəs ruhunu duyursan. Eyni zamanda, bu faciəni törədən cəlladlara qarşı rəssamın hədsiz nifrəti əsərdə aydın tərənnüm edilir. Xalqımızın imperiya təcavüzünə məruz qaldığı gecəyə həsr olunmuş sənət nümunəsi olan bu əsər bizi düşmənə qarşı daim ayıq-sayıq olmağa səsləyir.

**Ədəbiyyat siyahısı**
**Əsərləri**

Gitaraçı Sandre ; Heykəltəraş Kişfaludi Ştroblinin portreti ; Dağlılar // Multikulturalizm və Tolerantlıq Diyarı Azərbaycan / Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondu, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Azərbaycan respublikası Dini qurumlarla İş üzrə Dövlət Komitəsi, Azərbaycan Respublikası Mədəniyyət və Turizm nazirliyi, Azərbaycan Milli İncəsənət Muzeyi, Azərbaycan Rəssamlar İttifaqı. – Bakı : 2016. - 118 s.

**Haqqında**

Mikayıl Abdullayev = Живопись и графика : Rəngkarlıq və qrafika/ - Bakı : Xalq Bank, 2013. - 280 s. : foto, rəngli il., il. - (Xalq əmanəti). - Azərbaycan və rus dillərində. - (cildli).

Mikayıl Abdullayev (1921-2002) : rəngkarlıq qrafika. - Bakı : Şərq-Qərb, 2013. - 104 s. : rəngli foto, foto. - (Sərvət). - Azərbaycan və ingilis dillərində. Mikayıl Abdullayev (1921-2002) : [plakat-foto] : Boyakar,qrafik və teatr rəssamı. - Bakı : [s. n.], 2017. - 1 plakat foto.

**Kitablarda**

**İlqar Q.** İlkin xatirələr : Mikayıl Abdullayev Xalq rəssamı // Biz də uşaq olmuşuq. – Bakı : Nərgiz, 2003. – S.174-198.

**Quliyev Ə.** Azərbaycan rəssamlığının Mikayıl Abdullayev zirvəsi // XX əsr Azərbaycan incəsənəti haqqında oçerklər. – Bakı : Təhsil, 2012. – S.19-26.

**Rza X.** Mikayıl Abdullayev // Gəl, ey səhər. - Bakı : Nağıl evi, 2004. - S. 386-387.

## Dövri mətbuatda

**Mikayıl Abdullayevin 100** illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (10 sentyabr 2021-ci il) // Respublika. - 2021. - 11 sentyabr. - № 193. - S. 1.

**Ağayev E.** Mikayıl Abdullayev yaradıcılığında tarixi-ədəbi obrazlar // Mədəniyyət.az. - 2019. - № 326. - S. 49-51.

**Bayramlı M.** Əsrə bərabər ömür : Düşüncələrini rənglərə köçürən Mikayıl Abdullayev // Yeni Azərbaycan. - 2021. - 13 oktyabr. - № 186. - S. 8.

**Bayramova Z.** Rəssamlıq sənətinin böyük fırça ustası : Prezident İlham Əliyevin Sərəncamı ilə Mikayıl Abdullayevin 100 illik yubileyi qeyd ediləcək // Səs. - 2021. - 15 sentyabr. - № 166. - S. 11.

**Əliyev Z**. Səməd Vurğunun ilk portreti // Mədəniyyət. - 2018. - 25 aprel. - № 32. - S. 12.

**Mikayıl Abdullayev (1921-2002)** : görkəmli şəxsiyyətlər // Savalan. - 2019. - 8-14 yanvar. - № 1. - S. 2.

**Orucov E.** Rəssamlıq sənətimizin korifeyi : Mikayıl Abdullayev - 100 // Xalq qəzeti. - 2021. - 17 oktyabr. - № 224. - S. 10.

**Azərbaycan rəssamlığında Mikayıl Abdullayev izləri**
**(metodik vəsait)**

**Komputer yığımı**
**və dizayn:** **Nərgiz Məcidova**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı: www.clb.az**